# Şuşa tədbirləri - əsl elmi-kütləvi, mədəni-maarif proqramlarına nümunə...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

**Müasir tariximizdə elə müsbət, tarixə yazılan hadisələr baş verir, elə həqiqətlərin şahidi və iştirakçısı oluruq ki, bəlkə də bu bizə bir il əvvəl utopiya kimi görsənirdi, amma bu gün biz bu gerçəkliyin içindəyik.**

Qarabağın tacı, Qafqazın gözü, Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edilməsi tariximizə yazılan ən şərəfli səhifədir ki, biz bu səhifəni xalqımız durduqca, dövlətimiz yaşadıqca daha parlaq görəcəyik.

Şuşa işğaldan azad edildikdən qısa müddət sonra burada tikinti-quruculuq, bərpa işlərinə start verildi, şəhərin nəfəsi özünə qayıtdı, rəngi-ruhu açıdı. Azərbaycan Prezidentinin sərəncamı ilə ölkəmizin mədəniyyət paytaxtı elan edilən Şuşada mədəni-maarif proqramlarının, tədbirlərin, konsertlərin, ədəbi-bədii gecələrin, musiqi və poeziya bayramlarının şahidi oluruq.

**"Xarı bülbül" Beynəlxalq Musiqi Festivalı...**

Şuşada keçirilən ilk tədbirlərdən biri "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalı oldu. Azərbaycan Prezidentinin göstərşi və təşəbbüsü ilə keçirilən festival, musqi bayramı sözün həqiqi mənasında səsimizin Şuşadan beynəlxalq aləmə yayılmasının bir simgəsi idi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılış mərasimində iştirak etdiyi "Xarı bülbül" tarixi bir hadisə kimi yadda qaldı. Azərbaycan muğamları, xalq mahnıları və təsnifləri, başlıcası isə "Qarabağ şikəstəsi" Şuşada səsləndi, Cıdır düzündə, İsa bulağında, Şuşa dağlarında əks-səda verdi. Düşmənlər yanıb-qovruldu, dostlar bayram etdi.

**Vaqif Poeziya Günləri...**

Avqustun 30-da Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə şairin doğma şəhərində təşkil olunub. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Vaqif Poeziya Günləri keçirilir. 29 illik fasilədən sonra Vaqif Poeziya Günləri yenidən Şuşanın həyatını canlandırır, ruhunu cilalayır. 39 illik tarixi olan Vaqif Poeziya Günün yenidən Şuşada keçirilməsi özü də böyük hadisə kimi müasir tariximizə yazıldı.

**"...Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı..."**

Avqustun 30-da Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya Günlərinin açılış mərasimində çıxış edərkən Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə xalqımızı təbrik edib: "Əziz dostlar, bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz böyük Azərbaycan şairi, dövlət xadimi, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsinin önündə Vaqif Poeziya Günlərinin açılışını qeyd edirik. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Vaqifin məqbərəsi bütün digər tarixi abidələrimiz kimi işğal edilmiş torpaqlarda erməni vandalizminə məruz qalmışdır. Bu gün isə məqbərə tam bərpa edilib və dünən məqbərənin ikinci açılışı olmuşdur...

Ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mənim tərəfimdən mərkəzi meydanda qoyuldu. Dünən Şuşanın dirçəlişinin növbəti mərhələsi idi. Qeyd etdiyim kimi, Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, onu da mənfur düşmən dağıtmışdı. Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpası ilə bağlı göstəriş verildi. Dünən Polad Bülbüloğlu ilə və onun




oğlu, Bülbülün nəvəsi ilə birlikdə Bülbülün evinin açılışını biz qeyd etdik. Polad atasının evini bərpa etdi, indi çox gözəl muzey yaradılmışdır..."

Prezident Vaqif Poeziya Günlərində keçirdiyi görüşlərdən birində qeyd edib ki, bu poeziya bayramının beynəlxalq səciyyə daşımalıdır: "Mən fikirləşirəm ki, gələn il Poeziya günlərini beynəlxalq tədbir kimi keçirək..."

**Vaqif Poeziya günlərinin tarixi...**

Mərhum dövlət başçısı Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı onun milli ədəbiyyata, tarixə, mədəniyyətə böyük marağının təzahürü idi. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş vermiş və həmin ilin 29 iyul - 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi.

Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il avqust ayında şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı. Ədəbiyyatsevərlər arasında böyük maraqla qarşılanan bu günlər çərçivəsində şeir gecələri ilə yanaşı, konsert proqramları da təqdim edilirdi. Ekspertlər deyirlər ki, Prezident İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsi, burada "Xarıbülbül" musiqi festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi təkcə Şuşa şəhərində deyil, bütövlükdə torpaqlarını işğaldan azad etmiş və ərazi bütövlüyünə qovuşmuş müstəqil Azərbaycanda mədəni həyatın təntənəsinə çevrilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun təşkil etdiyi bu kütləvi-mədəni tədbir avqustun 31-də də davam edib və Azərbaycanın mədəniyyət paytaxtında bir araya gələn xalq şairlərinin, həmçinin orta nəsil və gənc şairlərin çıxışları olub, muğam ifaları səslənib, xalq və əməkdar artistlər "Nizamidən Vaqifə" adlı poetik kompozisiyanı təqdim ediblər.

Şuşada başlanan ədəbi-bədii, mədəni-maarif tədbirləri öz zənginliyi ilə diqqəti cəlb edir. Molla Pənah Vaqifin adını daşıyan poeziya günlərində həm şairin məqbərəsinin, həm də büstünün açılışı oldu. Bülbülün ev muzeyinin açılması və Üzeyir Hacıbəyovun abidəsinin açılışı da yeni tariximizə yazıldı. Ölkə başçısının təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən Vaqif Poeziya günlərində maraqlı sərgilər, konsert proqramları, şeir gecələri, ədəbi-bədii bir tədbirlər keçirilib. Əlbəttə, bu tədbirlərin təşkilinin özü gerçək bir örnəkdir.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**